- Can Nebi, bu iş ki, faş oldu, bu qurumsağı öl dürmemiş buralardan getme. Bu bey bizlere qenim olup. Bir kese göz açmağa macal vermir. Camaat acından qırılır, iki qata da olsan borca arpadan, buğdadan vermir. Gözleyir ki, qapısma sürüne sü rüne gedek, üç kat borca razı olak.

Nebi'ye de ele bu lâzım idi. Üzünü Ayrapet'e durup dedi:

- Xeber ele camaata, bu deqiqe onun taxılmı bütün açlara paylayacağam.

Sonra da Nebi arxada, Azay bey qabaxta düz geldiler beyin buğda quyularına. Ustad deyir ki, o gün Nebi düz qırx quyu taxılı yoxsullara payladı, iki quyunu da beye saxladı. Ayrılarken Nebi dedi:

- Bey, seni öldüreceydim, amma eyvandaqı arvadın-uşağm gözü qabağmda seni çekip attan yere salmağı kişiliyime sığıştırmaram. Ayrapet'e gözün üste qaşın var desen özün bil.

Nebi Boz atm yüyenini bıraxtı. Bir az getmişti ki, qulağmm dibinden bir gülle vıyıldayıp geçti. Geriye dönüp "Aynalı"nı çiyninden aşırdı, beyi seledi:

- Azay bey, men beylerin qeyretine beledem, ama menim sözüm sözdü. Arvad-uşaq yanında seni ğecil elemek istemirem. Eyvana bax, gör qızın ağlayır. Ancaq, papağından muğayat ol. Azay bey eyilip eyvana boylananda bir de onu gördü ki, bir gülle vıyıltı ile papağım vurup saldı yere. Qorxusundan başladı tir-tir esmeye. Nebi şaqqanat çekip3 güldü:

- Galx arvadmın leçeyini bağla başına. Salamat qal, Azay bey, ama arxamca bir gülle atsan, ecelini yetmiş bil.

Nebi Boz atın yüyenini boşalttı. Azay beyde teqet hardaydı ki, bir de eline tüfeng ala. Beyin arvadı vay-şiven kopartmıştı ki, ay kişi, o ne iş idi tuttun. Taxılı payladı getti, başqa qaçaqlar kimi arvad-uşağına toxunmadı, ev-eşiyini odlamadı, gülle nedir atırsan arxasmca. Anasının südü ona halal olsun ki, seni bize bağışladı.Mal yemezin malını bele yeğerler. Bey nece ve'dedir,qapmın dabamndan çrxardırlar ki, taxıl ver, bire üç almaq istiyenin malı, bire heç gider.

Beli, Nebi oradan atını birbaşa sürdü Araz qırağma. Get ha get, gelip çay kenarı kendlerden birine çattı. Hem at elden düşmüştü, hem özü berk yorulmuştu. Gördü yolun kenarındaki evlerden birinin çırağı hele sönmeyip. Ehmalca qapmı taqqıldatdı. Gapıya qoca bir kişi çıxtı. Nebi qocayla selam-kelamdan sonra dedi:

- Ay emi, qeribem, bir gecelik qonaq saxlarsan mı?

Goca dedi:

- Bıy, başına dönüm, qonaq Allah konağıdır, niye saxlamıram. Ele evde qonaxlarım da var, buyur içeri. Ama bu yarağından yasavula oxşayırsan, gel ele bunları da qoyaq tövleye. Gedek evvel atını rahatlayak.

Nebi istedi geri gayıtsm, ama qocanm mehribanlığmı görüp ireli keçti. Atı tövleye salanda burada da iki at gördü. Qoca bu atların da qonaxlarm olduğunu söyledi. Nebi istedi yene geri gayıtsm. Ama bu özüne sığıştırmadı. Qoca bütün yaraqları samanlıxta gizledi. Uzünü qonağina tutup dedi:

- Bu qonaxlarım da yaraqlı adamlardır. Qoy seninkileri gizledek, silâhın olduğunu bilmesinler.

Nebi soruştu:

- Ay emi, qonaxlarm birden şere-şül4 adam olar ha!

Goca dedi:

- Yox, ay oğul, qaçaq mal dalınca gelenlerdi. Adama iki tüfengleri, bir de şaşkadıs. maşkadı nedir, ondan varlarıdı; onları da söykediler qapmın arxasma.

Şaşka deyende Nebi dayandı, ahi, şaşka hara, qaçaq hara, şaşkanı pristavlar taxır, birden...

Nebi yene istedi geri gayıtsm, ama qoltuğundakı nağanı yoxluyup "Koy her kes olurolsun" deye düştü qocanm qabağma. Qocada ele hey teze qonağmm bazburduna baxa baxa qalmıştı.Nebi qocaya dedi:

- Ay emi, bu xurcunu da al, içerisinde bir so-

1. kargaşa 2. kırbaç 3. alkış, el çırpma 4. kötü 5. kargı

yutma quzu, bir de ele ayın oyun olmaldır. Onları da ver süfreye. Açlık mene lap kâr eleyir.

Qoca dinmeden xurcunu almaq istedi, amma xurcundan yapışması ile yere çökmesi bir oldu.

- Ay oğul, ne yaman ağırdır. Goy uşaqlardan çağrım el versinler, yoxsa belim qırılar.

Nebi "Lazım deyil, ay emi" deyip xurcuna el attı, qoca qabaxta, Nebi arxada eve geldiler. Qapıda qoca, Nebi'ye dedi ki, qonaxlara deyecem, bu kişi de menim qonağımdı, qomşu kenddendir. Geceye düşüp; ismin nedir?

- Kerem'dir, emican, Kerem.

Beli, qoca, Kerem'i qonaqlarla tanış eledi. Ortaya süfre salındı. Süfreniz hemişe açıq olsun, qoca xurcunu getirib başladı boşaltmağa. Nebi baxıp gördü ki, Ayrapet xurcuna domuz etinden tutmuş, tavuk-cüceye, lavaşa qeder her şey qoyup. Özözüne kederlendi. Ayrapet'in atalık qaygısı onu lap köyreltti.QonaqlaT da döyüküb qalmıştılar; çuvar hara, bütün quzunun soyutması hara. Nebi qonaxları yaxşi tanımıştı, biri Zengezur pristavı idi, biri de Nahçivan naçalniki. Libaslarını deyişmiştiler. Xoşbaxtlikten heç biri Nebi'ni üzden tanımırdı, odur ki, Nebi geçti Ermeni lehçesine:

- Gonak, qonağu getirer, ele tarixten Ermeni ile müsürmanın süfresi bir olup, qardaşlar çörek kesin...

Qonaxlar baxıb gördüler ki, teze qonax Ermeni'di, kefleri duruldu. Nebi evvelce domuz piyini yiyende qonaxlarm qalan-qalmaz şüpheleri de dağıldı. Nebi başladı ki, bes bu Araz boyu kendlerin camaatına qurban olum, bir arx su versen, adama min cürez hecalet verirler, düz üç gündür onların taxılmı suvarıram. Hurcunuma o qeder yükleyipler ki, darta bilmirdim. İndi siz mene fikir vermeyin, men üç günlük yemeyimi yiyeceyem.

Beyler evvelce özlerini o yere qoymadılar, ele bir iki tike yeyip gözlediler ki, Ermeni yiyip qurtarsm, sonra onlar özleri şam elesinler. Gördüler yox, Ermeni piyin dalınca toyuqlar, toyuqlarm dalınca kuzu soyutmasmı aşırır, süfreda bir şey qalmır. Zengezur pristavı dâvam getirebilmedi:

- Ne heyvere yeyişin var, e, ismin nedir?

- İsmin Kerem'dir, derdin alım.

- Ermeni'den de Kerem olar?

- Olar, olar, derdin alım, bu müsürman kendlerinde Ermeni oldu, müsürman oldu, Kerem olur.

Beyler gördüler, Kerem heç ağzını boş qoymur,danışanda da yeyir. Bele getse süfrede bir şey qalmaz. Beylerden biri qocanı çağırıp dedi:

- Ay qoca, meyden-mezeden bir şeyin olmaz, vererek bu Ermeni çuvarınai bir az oxusun?

- Niye olmur, yaxşi dut arağım2 var, meyliniz çekse, bu saat!

Qoca dut arağını ortaya qoyup, özü de süfreye yaxm oturdu.

Qonaxlar yediler, içtiler, çuvara da bir satıl araq verdiler. Özleri yarım satıl içebilmediler, Emeni'ye mat qaldılar. bir satıl çeçe "suyu" onun heç halını da bozmadı. Qonaxlar yapıştılar çuvardan ki, gerek oxuyasan. Cuvar da dedi ki, oxumağma oxuyacam, ama siz o taydan gelirsiniz, bir danışın görek qardaşlarımız nece dolanırlar, arşın mali enip, yoxsa qalxıp, bazar necedir?

Çuvarın sözü qonaqları açtı. Başladılar dağdan dereden danışmağa. Sonra da çuvar soruştu ki, bes ne axtarırsız, ipek gereğinizdise bir kârvan ipek verim size aparm o tayda satın,

Bunu eşiden Zengezur pristavı dedi:

- E, ipek nedi, şal nedi? Sen çuvar adamsan,belke bize kömeyin deydi. Biz başka şey üçün gelmişik. Heremizin de üç yüz atlısı var.Nebi'ni axtarırıq. Bütün Zengezur dağlarında ne qeder qaçaq-maçaq var hamısmı yığıp doldurmuşuk Görüş gazamatına. Bele bığlını da, Nebi'nin qardaşlarmı da, elqerez, hamısmı tutmuşuk, Görusdadı. bir özü yoxtu, bir de Hecer. Bu gün eşitmişik ki, Hecer Kerbelayi'nin evindedir.Indi bu gün, sabah burdan Nebi'ni KX tuttuq, sonra gör on lara ne meclis qurulacak.

İçkinin tesirinden haldan çıxmış pristav cibinden bir kağız çucarıb elinde yelledi:

- Bak Nikolay'm3 mühürlü kağızıdır. Yazır ki, bu yaza qeder Nebi'nin destesi mehv edümelidir. Özü de onu tutan bilirsen ne qazanacak, qubernattan-zaddan, bizim kimi dil bilen olsa bütün ermeni, Gürcü, Müsürmana başçı olacaq. Devirler Nebi burada bir Ermeni'nin evinde qalıp at nallayır.

Nebi başladı üreyini yemeğe. Fikirleşti ki, deyesen uşaqlardan kim'se ele geçiripler, yoxsa bele arxaym danışmazlar, özü çuğuÜan. Odur ki, dedi indi görün sizin başmıza ne oyun açıram.

Ermeni lehçesinde sözüne devam etti:

- He, deyesen, bunu men de işitmişem, özü de o nalbende atımı nallatmışam. Ama Nebi ol duğunu bilmemişem, bilseydim bazburduna bir baxıb görerdim ne tövür insandır o.

Beyler dediler:

- Giderik tezeden baxarsan!

Nebi dedi:

- Yox indi tezdi. Ancaq siz arxayın olun, bu gece Nebi'ni men size teslim edecem Ne qoşun la zımdı, ne de bir atlı. Qoy geceden geçsin, Arsak kişi menim bir sözümü iki elemez... Men bu Nebi'ni qolu bağlı size teslim etsem, mene ne verersiz?

Beyler, heresi bir torba gösterdiler, dediler bu gece Nebi'ni bize versen, iki torba qızılm ikisi de senindi. Beli, bele de şertleştiler. Pristav dedi, isteyirsen Tebriz valisine deyim Nebi'ni özü tutsun. Nebi dedi yox onda size bir şey vermezler. Gedek men özüm tutup onu size verim. Beli, meclis tezeden qızıştı. Nebi beyleri yeniden içirip keflerdirdi... Ele ki, gördü geceden xeyli geçip, vaxıtti, durup yola düştüler. Nebi serxoş beylerin silâhı, güllesi, nağanı, neyi vardı, hamısmı götürdü, özlerine de möhkem tapşırdı ki, dalımca çapın. Beli, naçalnikler de çapa-çapa Araz'ı geçip Görus'a üz qoydular. Sehere yaxın yolcular atlarının yüyenlerini çektiler. Nebi onları attan düşürüp dedi:

1. çocuk 2. rakı 3. Rus çarı

- Muhterem pristav ve naçalnik, ellerinizi yuxarı qaldırın, bilin ve agâh olun ki, tutmaq is tediğiniz Qaçak Nebi menem. Eğer dediklerime emel etmeseniz, o deqiqe beyninizi göye sovuraram.

Bunu eşiden pristav ve naçalnik birbirine deydi. İstediler ellerini yuxarı kaldırsınlar, hirshikkeden ürekleri geçti, serildiler yere. Nebi onları silkeleyip özlerine getirdi. Pristav ve naçalnik başladı yalvarmağa ki, bir qeletti elemişik, günahımızdan geç, ne deyirsen gözümüz üste.

Nebi dedi:

- Bax, bura Görus gazamatıdı. İndi giririk içeri bütün dustakları azad edirik.

Pristavla naçalnik bir ağızdan "baş üste" dediler. Beli, Nebi girdi gazamata, açarı alıp başladı qapıları açmağa. Evvelce dustaklar ele bildiler ki, onları öldürmeye aparırlar. Nebi Qanlı Qoca'nın bu sözünü eşitti ki, Mehdi, biz bayıra çıxan kimi aradan çıx. Deyesen bizi öldürmeye aparırlar. Nebi'ni tapıp başımıza gelenleri ona danış, de ki, qanımızı yerde qoymasm, çuğullarm başını öz eliyle kessin.

Bunu eşiden Nebi döze bilmedi, - Sesine qurban, Qanlı Qoca, gelen ele Nebi'di, çuğul başını özün kesersen.

Gazamata bir hay düştü ki, gel göresen. "Nebi", "Can Nebi", "Nebi" sözleri alemi götürdü. Mehdi Nebi'nin boynuna sarılıp uşaq kimi ağladı... Bütün başlarına geleni Nebi'ye danıştı. Sen deme onları tutan pristavla naçalnik Goburnata vad edipler ki, Nebi'ni destesi ile birge asacağık. Naçalnik te düz qırx gün onları falaqaya saldırıb döğdürmüş ki, Nebi'nin yerini nişan verin. Bir günde uşaqlara qan utturduğunu gören Mehdi deyir:

- Ay naçalnik, Nebi Araz'ı adlayıp o taya, ne hak-hesabm var, get onunla çek, day bize her gün qan uddurduğun beşti, işimizi ver divana. Divan ne ceza verse qebulumuzdu.

Beli, Nebi bütün bunları eşitenden sonra Qanlı Qoca'ya üzünü tutup dedi:

- Görus gazamatm iki defa xaraba qoyduk. Üçüncüden Allah saxlasm. İndi ki sizi bele qan udduruplar naçalnikle pristavı getirmişim hu zurunuza, ne cezanız varsa verin.

Mehdi ile Qanlı Qoca ele bil bu söze bend idiler. Uşaqlara göz elediler. Pristavla naçalniki bir göz kırpımında didim didim diddiler.

Nebi uşaqları da götürüp yeniden dağlara çekildi. Yolda Kerbelayi'nin evine baş çekti. Hecer'den ötrü burnunun ucu göyneyirdi.

Hecer'i görüp ne qeder sevindise Kerbelayi'nin ölüm yatağına düşmesi onu o qeder kederlendirdi. Nebi'nin henirinıi duyan Hecer özünü eyvandan Nebi'nin üstüne attı. Xoş-beşten sonra dedi:

- Can Nebi Kerbelayi iki gündür canbeser olup. Ele hey soruşur ki,Nebi gelmedi, deyirem yox. Deyir ki, indi gelecek gelende mene xeber eyle.

Doğrudan da Kerbelayi, Nebi'nin ayak seslerini tanıdı, dik qalxıp oturdu. Nebi'ni görende ağladı. Nebi ile Kerbelayi uzun illerin hasretlileri kimi qucaklaştılar. Kerbelayi özünü toplayıp dedi:

- Nebi, oğul, yadında mı demiştim, harda olsan gelip gözüme bir avuç torpak atarsan, meni elinle qebirde rahatlayıp gedersen... Nece vaxitti yolunu gözleyirdim. Meni öz çiyninde götür, qoyma it-qurt ruhumu hörmetsiz elesin.

Kerbelayi bunu deyip Nebi'ni doyunca süzdü ve gözlerini hemişelik yumdu.

Nebi geceni Kerbelayi'nin evinde qaldı. Yoldaşları meseleni bilip Baş Hekeri'ye2 doluştular. Sabah açılanda iyne atsaydm yere düşmezdi.

Divan atlıları Hekeri kendlerini geze geze gelip Baş Hekeri'ye çıxtılar. Strajniklerin kende girdiyini eşitten Nebi emr eledi ki, hepisini terkisilâh edip huzuruna getirsinler.

Ele ki, hamisi Nebi'nin karşısında dayandı, Nebi üzünü strajnik basıya tutup dedi:

- Bax, sizin heç birinizle işimiz yoxtu. Bu gün atamı defn etmeyince kendden çıxtı yoxtu. Gözleyirsiniz, kişini defn edirik, sonra çıxırıq kendden, silâhlarınızı gaytarıp verirem özünüze. Meyliniz çeker, iğit kimi vuruşarık, çekmez siz öz yolunuzla gedersiz, biz de öz yolumuzla.

Strajnikbaşmın sevindiyinden dili dolaşırdı:

- Can Nebi, baş üste, biz bele günde heç sene gülle atarık mı? Allah bu pristavla naçalnikin evini yıxsın, bizim senle ne işimiz var, meğer bilmirik stii nece iğit adamsan? Ağa deyir sür dereye, biz de sürürük, bizim de çöreğimiz buradan çıxır, yoxsa sene bir gülle atan nakişidir. Yadında mı can Nebi, Düldülüs'te seni biz özümüz aradan çıxardıq, güdaya vermedik3. Heç naçalnik indi de bilmir ki, hardan geçip dağı aştın.

Nebi strajnikbaşı Stratsov'u indi tanıdı. Doğrudan da, Düldülüs'te Stravsov strajnikleri Nebi'yi gülle atmağa qoymamıştı. Papağı ile yolu gösterip, çıxıp yoldan kenarda dayanmıştı. Elqerez,- Stratsov sözünün üstünde dayanmıştı. Kerbelayi'ni büyük tentene ile defn ettiler. Akşamçağı qebir üstten gayıdarken Stratsov Nebi'ye xeber gönderdi ki,naçalnikle pristavm öldürülmesini, Görus gazamatmm dağılmasını padişaha xeber veripler. Goburnat özü böyük deste ile Görus'a yola düşüp. Buralarda çox lenqime tez, aradan çıx.

Söz Nebi'nin ağlına battı. Stratsov silâhları da götürmedi. Dedi:

- Silâhları götürsek, bize inanmazlar, hamımızı Sibirya'ya sürürler. Yaxşisi budur ki, deyerik Nebi bizi terksilâh eledi, ne qeder patronumuz da var, alm, ancaq atanda ağzmı biz tarafa tutmayın ha!

Nebi güldü, elini strajnikbaşmın çiynine vurup atlılara emr verdi. Onlar dağlara yetişende ürekleri tab getirmedi, hamı bir ağızdan oxumağa başladı.

Goburnat bütün pirstavları yığıp meşveret eledi. Gördü ki yox, heç kes day Nebi'ye baş qoşmaq istemir, kime deyir sen get pristav ol, el tutup

1. nefes 2. köy adı 3. Bu oyuna düşmedik.

aman edir ki, meni balalarının başına çevir, istemirem. Bir defe yene goburnat bütün başbilenleri yığdı. Yene tedbir töktü ki, yaxşi bes ne edek, bu Nebi'ni aradan götürek. Onda Koşa bey adlı bir namerd özünü ireli verip dedi:

- Goburnat sağ olsun, isteyirsen ki, biz beylere, hampalara rahatlık olsun ,gerek Nebi'ni aradan götüresiz. Onu aradan götürmek de qoşun işi deyil. Bunun bir yolu var. O da Paşa beyin elindedir. Bi lirsiniz de Paşa beyin arvadınm bir bacısı Nebi'nin destesindeki Şahhüseyn'in arvadıdır. Burada arvad fe'li lazımdır.Bunun da ustası Paşa beydir. Paşa bey o qeder beylerin xanımanmı viran qoyup ki... Bu onun elinde su içmek kimi bir işti.

Söz goburnatm ağlına battı. Bütün adamları dağıttı. Koşa beye emr etti ki, bir heftenin tamamında Paşa beyle onun huzurunda hazır olsun.

Beli, vade vaxti Koşa beyle, Paşa bey özlerini yetirdiler goburnatm huzuruna. Çox götür-qoydan sonra qerere geldiler ki, Şahhüseyn arvadı vasitesile ele keçirip Nebi'ni öldürsünler. Goburnat, Paşa beye kendler de vedetti, pirstavlık ta. Koşa beyin de gönlünü qırmadı. Onu da Nikolay'm ordeninii alacağına arxayın etti.

Beli, Paşa bey oradan geldi evine, arvadma o ki var dil töktü. Handan hana meseleni açtı ki, bes gerek bacını dile tutup Şahhüseyn'i ele geçiresen. Sonra da goburnatm verdiyi sandıkçadan on dene kızıl onluk çıxarıp qoydu arvadm qabağına.

- Bunları aparıp verersen bacına. Deyersen dünyada ne lazımdı bize, Şahhüseyn bundan sonra xan olacak. Kendi, obası olacak, özü de padişah onu qızıla tutacaq. Bu qızılları da padişah özü gön derip.

Beli, çox çek-çevirden sonra Paşa bey arvadm bacısıgile yola saldı. Bacı da bacıynan dil taptı. O günden arvad başladı Şahhüseyn'in beynini yemeye ki, beşti qaçak oldun. Ev-eşikten uzaq düştüyün yeter, yığış gel eve, oğul-uşaq üzünü doyunca görsün. Şahhüseyn'in de eli tüfengden soyudu. Arvad gördü kişinin zeyif damarını tutup. Odur ki, yavaş yavaş meseleni ona açmağa başladı. Dedi:

- İsteyirsen yoxsulluğun daşını atasan, bey xan yanında hürmetin olsun, onda Nebi'ni öldür, üze çık. Gör Nikolay padişah seni qızıla tutur, tutmur, seni pristav qoyur, qoymur?

Şahhüseyn'in dinmediyini görende arvad biz az da qızıştı:

- Beşti, bir bacımla düşmen oldum, sen Nebi kimilere yox, Paşa beye qısılsaydm, indi bey idin. Gel bu daşı tök eteyinden. Şahhüseyn'in sabrı tü kendi:

- Kes sesini leçer, deyirsen namertlik eleyim?!

O günden arvadla Şahhüseyn arasında bele sohbet tez-tez olurdu. Arvad yavaş yavaş erinin saqqızmı oğurlayırdı. Bir defe Nebi Araz'ın o tayında idi, qaçaklarm da çoxunu tutup salmıştılar Görus gazamatına. Şahhüseyn de eve gizli gelip-gedir, günlerle evde gizlenip camaat araşma çıxmırdı. Oğul-uşaq yemekten qıtlıq çekirdi. Arvad da oyunu ovlamak üçün meqam gözleyirdi.

İndi meqam da yaxşi düşmüştü. Evde bir urvalık2 un yox idi. Şahhüseyn erki, çatan bir iki yere sipariş gönderdi, amma bir şey çıxmadı. Şahhüseyn geceni dözmeyip özü evden çıxtı, xeyli sonra iki pud arpa unu ile geldi. Dedi Hecer haradansa tapıp, deyip bir iki gün dolanın, Nebi bu günlerde gelip çıxmalıdı.

Arpa ununu gören arvad başladı Nebi'ni Hecer'i qargımağa. Sonra da bir ovuç qızıl çıxarıp tökdü Şahhüseyn'in qabağına.

- Allah dadına çatmış Paşa bey gönderip. Deyir Şahhüseyn uşaqİarı acından qırmasm. Al get pazarlık ele, qırma bizi acından. İndi görürsen mi hangi yol bizim eve ışıq salar, bereket getirer?

Şahhüseyn bir söz demeden xeyli götür-qoy eledi. Arvadın te'nesi onu lap bezdirdi. Day dözebilmedi. Qızıl onluklardan bir neçesini götürüp, geceynen özünü verdi Ermeni pazarına.

Seheri eve bir aylık bazarlı qoyup dağlara çekildi. Beli, o günden yoldaşları Şahhüseyn'de bir soyukluk gördüler. Doğrudan da Hecer'in havadan dediyi söz düz oldu. Nebi gelip çıxtı. Özü de Qörüs qazamat'nı ikinci defe dağıtıb iqitlerini qanadma alıb dağlara çekildi.

Kerbelayi'nin ölümü Nebi'ye yaman yer elemişti. Ele hey Hecer'e deyirdi ki, ele bilirem bir yanım yoxtu. Kerbelayi gerek bele tez bize vefasızlıq elemeyeydı. Ustad deyir ki,Kerbelayi vefat edende Nebi düz qırx gün bir gülle bile atmadı. Her cuma axşamı yeddi yoldaşı ile Kerbelayi'nin qebrini ziyaret eder, evine baş çekip cuma axşamısmı verer, yeniden meskenine qayıdardı. Ustad deyir ki, bir defa yas yerinden gayıdarken yolda pirstav Ceferqulu beyle karşılaşır. Bu, o Ceferqulu bey idi ki, Nebi'nin başına qıymet qoymuştu. Car çekmişti ki, her kes Nebi'nin başını getirse, ona iki yüz qızıl peşkeş verecek.

İndi o, birden Nebi ile qarşılaşanda özünü yetirdi. Günün günorta çağı pirstavm ağlına hardan geleydi ki, Nebi'yle karşılaşacaq. Pristav ellerini yuxarı kaldırıp başladı Nebi'ye yalvarmağa.

Nebi ne bir kelime danıştı, ne de dindi, elini atıp pristavın papağını götürüp Boz atm ayağı altına attı. sonra piristavm silâhlarını aldı. Kelime kesmeden başının adamlarıyla çıxıp getti. Ustad deyir, bir gün de Nebi, Tacirbaşı Nuhu beyle rastlaştı. Tacirbaşı öyle bildi, Nebi onu öldürecek. Odur ki, beş yaşlı balaca qızını qucağma alıp Nebi'nin huzuruna geldi. Yalvardı.

Nebi körpeye xeyli noğul-nabat verdi. Sonra üzünü Tacirbaşı'ya tutup dedi:

- Yaxşi, titreme, seni Kerbelayi'nin ruhuna bağışlayıram, de görek bize satlıq neyin var? Papaxtan, yapmcıdan?3

Tacirbaşı dedi:

- Can Nebi, satlıq nedi, bütün kervan sene qurbandı, yaxşi yapıncım da var, papağım da.

Nebi, Nuhu beyden özü ve yoldaşları üçün

1. madalya 2. bir avuç un 3. kepenek

papaq, yapma aldı. Hepisinin pulunu bire beş verip dağlara qalxtı.

Kerbelayi'nin qırxnı verdikten sonra Nebi bir nece gün heç yana çıxmadı. Goburnatm qoşunu da gelip Görus'ta dayanmıştı. Deyirler Nebi'ni tapmamış bu qoşun leşker daha Zengezur'dan geri dönmeyecek.

Nebi içeriden şüphelenmeye başladı. Odur ki, hemin gün axşam bütün yoldaşlarını başına yığıp dedi ki, deyesen aramızda nâhelef var. Her kes çöreyimizi tapdayırsa, qoy tapdasın, kim evine getmek isteyirse, getsin. Sonra Şahhüseyn'e üzünü tutup:

- Gözüme son vaxt derdli görünürsen. Belke ev-eşik sarıdan nigâransan, seni bıraxıram, get, ne qeder isteyirsen evinde qal. Günün xoş geçer hemişelik qalarsan. Yox gönlün bizi ister ha vaxt gel sen komamız ele senin öz komandır.

- Nece ki Nebi qardaş, yoxsa men seni bezdirmişem?

- Yox, ay Şahhüseyn, senin gözlerin heç menim xoşuma gelmir. Ele bil gözlerini değişmisen, Hecer de geceler rahat yatabilmir. Hey yuxuda diksinir ki,qoyma Şahhüseyn meni öl dürdü. Kendliler de hey sifariş edirler ki, Şahhüseyn'in derisini boğazından çıxar. Amma seninle duz-çörek kesmeşik axı... Axır vaxtlar da tez tez Paşa beyle görüşürsen, evine gedip gelirsen. Amandı birce yoldaşlara xeyanet eleme, rüsvay olarıq.

Şahhüseyn gördü, Nebi meseleden emellibaşlı xeberdardı. El attı hiyleye. Gözünün yaşının sel kimi töktü. Dedi Allah'ıma kem baxaram, sene yox, Nebi, düşmen şözüdü, fe'le uyma, heç yana da geden deyilem. Öldüresen ele meni öz elinle öldür. Amma mene möhlet ver, gör deyilenler nece böhtandı. Her şeyi bir de yoxla, sonra meslehet senindi, istesen çıxıp gederem, bax bu uca qayaların birincisinden özümü ataram, görersen ki, Şahhüseyn ne Şahhüseyn'di.

Nebi çox derine getmedi. Hecer de susurdu, Mehdi de. Hamı dağlara yayıldı. Şahhüseyn de öz qomasına getti. Ancaq ilan vuran yattı, Şahhüseyn yatmadı. Gecenin bir vaxtmda qalxtı ki, day buralarda durmaq mene yaraşmaz. Baş götürüp getmek lazımdır. Araz'ın o xeyli getmişti ki, gördü qabaxta bir qaraltı görünür. Aylı gece idi. Her yer süt kimi idi. Baxıp gördü ki, Nebi'dir, Boz atın yalını tumarlayır. Ele tüfengi çekmişti ki, Boz at bir kişneme kişnedi, dağlar daşlar lerzeye geldi.Gaçaxlar yerinden dik qalxtılar. Nebi dönüp qabağmda tüfengi ona hışlayan Şahhüseyn'i gördü; birce bunu deyebildi: "Ay namerd". Gülle sesi dağlarda aks-seda verdi. Boz at yerinden qalxıp Şahhüseyn'e ele bir qaşa tepik vurdu ki, canı ele oradaca çıxtı. Yazık heyvan dağları daşları harayladı. Şahhüseyn'i o qeder tapdaladı ki, nah söküldü. Sonra Nebi'nin yanma gelip insan kimi göz yaşı axıttı.

Mehdi Boz atın kişnertisine özünü yetirdi. Boz at tir tir titreyir, gözünden kanlı su tökürdü. Bele baxanda Nebi'ni al qan içerisinde gördü. Gaçaklar axışıp geldi, Hecer'e xeber apardılar ki, Nebi'ni öldürüpler. Sübh çağı onlar Gara Yurdda Nebi'nin cenazesi üste bir şiven qoparıplar ki, gel göresen...

Hecer özünü Nebi'nin üstüne atıp huşdan getti. Boz atın derdden bağrı çatladı. Nebi'ni ata yurduna getirdiler. Gözel arvad saçını yolup Nebi'nin üstüne attı. Ananın feryadı bütün kendi basma aldı

Bu dağlar ulu dağlar
Çevresi sulu dağlar
Qoynunda iğit öldü
Göy kişner, bulud ağlar.

Hecer huşa gelip tezeden özünü Nebi'nin üstüne attı.

Goburnat qoşunun başçısına xeber verdiler ki, Nebi'nin meyidini Mollu'ya getirdiler, meqamdır, meyidi gerek divana aparak. Paşa bey bu taraftan özünü yetirdi ki, bes Nebi'ni öldürdüm, indi gedek cenazesini alıp divan qapısında darağacmdan asak. Padişaha da mektup yazak ki, Paşa bey senin emrini yerine yetirdi. Qoburnat qoşunun başçısı general Zuboc, Paşa beye dedi ki, mektubu qoburnat yazmalıdı. Ancak gel biz daha Mollu'ya getmeyek, ölüp, demek tapşırık yerine yetirilip. Qoburnatm tapşırığını gözleyek. Paşa bey çem-xem eledi, general da qoşunu götürüp geldi düz Mollu'ya, Gözelin qapısına. Gördüler ki,burda iyne atsan yere düşmez.Paşa bey özünü verdi ireli.

Hecer yoldaşlarına tapşırmıştı ki, burada bir kese gülle atmayın. Strajniklerden gelen olsa meni çağırm. Beli, generalla, Paşa bey heyete girende gödüler evden bir şiven qalxır adamın tükleri biz biz olur. Hecer de, Nebi'nin meyidi üste oturup saçını yolurdu:

Dağıttı qoymadı düşmenler oba
Qara yurdu görüm qalsın xaraba
Qoç Nebi gedipti ayrılmaz haba
Darasm saçını teller ağlasm
Nebi'nin üstünde eller ağlasm.

Nece baxım bu gadalı yehere
Çekti namerd çarpaz dağı Hecer'e
Ganlı köyneyini verim Gözel'e
Darasm saçını teller ağlasm
Nebi'nin üstünde eller ağlasın

Qoç Nebi'nin eller alsın qanmı
Qırsın beyin, hampasmı, xanmı
Dağıtsın evinin, xanimanmı
Darasm saçını teller ağlasın
Nebi'nin üstünde eller ağlasın ,

Töksün göz yaşını ellerim menim
Gör nece soluhtu güllürim menim
Tutulup, lâl olup dillerim menim
Darasm saçını teller ağlasın
Nebi'nin üstünde eller ağlasın.

1. tabanca.

fcS General soruştu ki, bes bu ağlayan oxuyan kimdi. Paşa bey dedi ki, bu Hecer'dir, indi onu da tutup divana aparmak lazımdır. Paşa beyin sözü generali lap esebileştirdi. O, "tfu" deyip dabanı üste geri döndü. Paşa bey ele bildi ki, general qoşuna içeri doluşmağa emr vermek üçün geri döndü. Ama bir de onu gördü ki, general öz gazalağma minip, qoşunu da götürüp çıxıp getti. Paşa bey qaçaqlarm arasında teq qaldı, onu Hecer'in huzuruna getirdiler. Hecer dedi:

- Düşmeni iğit üste getirmeyin. Nebi'nin yarası qan verer. Onu it damına aparın.

Paşa beyi it damına getirdiler. Hecer nağanını çıxarıp "ohhay" deyip onun tepesine üç gülle çaxtı. Sonra Nebi'nin üstüne gayıttı.

Ustad deyir, Nebi'nin defni böyük el matemine çevrildi. Qoburnat qorxudan camaata bir söz deyebilmedi. Bütün Zengezur axışıp Mollu'ya geldi. Nebi'ni son menzile yola saldılar. Hecer Nebi'nin mezarı üstünde and içti:

- And içirem eziz Nebi, seninle kesdiyim duzçöreye, ne qeder ki, sağam, senin düşmenlerine göz dağı çektireceyem.

Yeddi min yeddi yüz yetmiş yeddi iğit de Hecer'in sesine ses verdi. Ele oradan iğitler silâha sarılıp dağlara, derelere çekildiler.

Nebi öldüse de iğit Hecer onun qanını yerde qoymadı, beylere, xanlara, zalımlara göz verip, ışık vermedi. Düşmenden intiqam alındı.